Ədalət.- 2021.- 20 fevral. S. 15.

**Ramiz Bahaduroğlu**

***Əziz Şuşa sən azadsan.***
***Əziz Şuşa biz qayıtmışıq.***
***Əziz Şuşa biz səni dirçəldəcəyik.***

*Azərbaycan Respublikasının Prezidenti*
*İlham Əliyev*

# *Qayıtmışıq*

**Bu haqqın davası,haqqın savaşı,**
**Mayak tək parlayır Murovun başı,**
**Qartallar qıy vuran sıldırım daşı,**
**Hər qarış torpaqı Vətən sanmışıq,**
**Dağlar, gözün aydın biz qayıtmışıq.**




**Düşmənə əsir oldun-ötdü illər, fəsillər,**
**Qisas oduyla yandıq,ər böyüyən nəsillər,**
**Babəkin,Xətainin qılıncından ğüc əmər,**
**Ay,ulduz haşiyəli bayrağa sarılmışıq,**
**Torpaq, gözün aydın biz qayıtmışıq.**

**Oyan Xarı bülbül,oyan qərənfil,**
**Sil ğöz yaşını Bakı,Ərdəbil,**
**Ey babam Pənah xan,İbrahimxəlil**
**Basıb sənğərləri dağlar aşmışıq,**
**Şuşam, gözün aydın biz qayıtmışıq.**

**Füzuli,Cəbrayıl, Laçın,Zənğilan,**
**Qubadlı,Kəlbəcər,Ağdamdır yanan,**
**Ey odlar diyarı, can Azərbaycan,**
**Hər dağa,har daşa bayraq sancmışıq,**
**Qarabağ, gözün aydın biz qayıtmışıq.**

**Qəlpə-qəlpə bölündün kağızdakı yazıyla,**
**"Ğülüstanı" suvardıq " Kürəkçayın " suyuyla,**
**Ünvanını yazdılar min yozumlu adıyla,**
**Bütövləşib bir olduq cahana hay salmışıq,**
**Vətən, gözün aydın biz qayıtmışıq.**